# “İndidən öz gələcəyinizi MÜƏYYƏNLƏŞDİRİN...”




Rəşad Məcid: “İndi cavanlarla verilişlərə çıxanda müşahidə edirəm ki, gələcəklə bağlı qeyri-müəyyən təsəvvürləri var. Bilmirlər, hansı sahəyə üz tutacaqlar. Bir insan bir şeyi ürəkdən istəyirsə, onun üçün dəlicəsinə çalışırsa, mütləq ona çatır. Dəlicəsinə istəməyin içində zəhmət, əziyyət, inadkarlıq, əzmkarlıq var”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az













“Məktəbdə” layihəsi ilə maraqlandım. Ölkənin çox tanınmış insanlarının bu layihədə iştirak etdiyini öyrəndim. Məktəb seçimini bəzən qonaqlara həvalə edirlər. Mən də Suraxanı rayonundakı 96 saylı tam orta məktəbi seçdim. Məktəbin ab-havası xoşuma gəldi. Şəhərin tıxacından uzaq, sakit bir yerdədir. İki dəfə bu məktəbə görüşə dəvət alsam da, gələ bilməmişdim. Birdən ağlıma gəldi ki, bu məktəbə borcum var, gəlib onu qaytarım”- Mətbuat Şurasının sədri, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid “Məktəbdə” qonaq olarkən çıxışına bu sözlərlə başladı.

Rəşad Məcid “Fəaliyyətimin əsas hissəsi qəzetlə bağlıdır”, - deyə uşaqlara məlumat verərək jurnalistlik fəaliyyəti, baş redaktoru olduğu qəzet haqqında danışdı: “Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişəm. “Elm və həyat” jurnalında, “Azərbaycan” qəzetində fəaliyyət göstərmişəm. 1992-ci ildə “525-ci qəzet”i təsis etmişəm. Əsas fəaliyyətim bu qəzetlə bağlıdır. 1992-ci ildə artıq Azərbaycanda müstəqil qəzetlər yaranmağa başlamışdı. Biz də müstəqil qəzet yaratmaq fikrinə düşdük”.

### ƏDƏBİYYATA HƏVƏS GÖSTƏRƏNLƏR VARSA...

R.Məcid Yazıçılar Birliyində də gənclərlə işlədiyini bildirdi: “Qəzetdə olduğu kimi, Yazıçılar Birliyinin Gənclər üzrə katibi olaraq da gənclərlə işləmişəm. Bu vəzifəyə seçiləndən sonra Mədəniyyət Nazirliyi ilə birgə “Gənc ədiblər” layihəsi yaratdıq. Harada bir istedadlı gənc görürdümsə, onu üzə çıxarmağa çalışırdım. Bu gün Azərbaycanda yetişən istedadlı gənclərin 90 faizi “525-ci qəzet”in və Yazıçılar Birliyinin ətrafında formalaşıblar. Keçən ildən bu qurumda sədrin müaviniyəm, amma yenə də gənclərlə işimi davam etdirirəm. Yazıçılığa, poeziyaya meyli olanlar, ədəbiyyata həvəs göstərənlər varsa, məmnuniyyətlə əlaqə saxlaya bilərlər”.

R.Məcid jurnalist kimi fəaliyyətində 2003-cü ildə yaradılan Mətbuat Şurasının rolunu da qeyd etdi.




Fotolar: Rüfət Mikayılov / Global Media Group

## “AĞDAM VƏ DİGƏR ŞƏHƏRLƏR YENƏ ƏVVƏLKİ KİMİ GÖZƏL OLACAQLAR”

“Ağcabədidə doğulmusunuz, Ağdamda yaşamısınız. Sizin xatirələrinizdəki Ağdamla yenidən qurulan Ağdam bir-birindən daha çox nə ilə fərqlənir?” - deyə şagirdlərdən biri sual ünvanladı. Qonaq qeyd etdi ki, doğum yeri sənəddə “Ağcabədi” qeyd olunub: “Mən Laçın rayonunun Ağoğlan kəndində anadan olmuşam. Sonra 40-ı çıxmamış uşağı Ağcabədiyə gətiriblər və doğum şəhadətnaməmi orada veriblər. Amma orta məktəbi Ağdamda - Sədrəddin Bayramov adına 1 nömrəli məktəbdə oxumuşam. Keçən il jurnalist Səadət Məmmədovanın “Ağdam və mən” layihəsi əsasında həmin məktəbdə veriliş çəkildi. Bu, çox acı, insanı sarsıdan məqamlar idi. Amma eyni zamanda qürur doğururdu ki, qəhrəman Azərbaycan Ordusu Şuşanı, Ağdamı və digər rayonları erməni işğalından azad edib. İnsan yaşlaşanda istəyir ki, uşaqlıqda gördüyü məkanları canlı görsün. Uşaqlıq illərini xatırlamaq yaddaşa xoş duyğular gətirir. Heç olmasa, indi bu şəhəri görə bilirik. İnanıram ki, Ağdam və digər şəhərlər yenə əvvəlki kimi gözəl olacaqlar.”

### DƏLİCƏSİNƏ SEVƏNDƏ

R.Məcid məktəb illərində yazdığı ilk şeiri xatırladı: “3-cü sinifdə oxuyanda sinif müəllimim Fəridə xanıma şeir yazmağım yadımdadır. O, şeiri minnətdarlıq duyğusu ilə oxudu. Sonrakı illərdə - 4-5-ci sinifdə oxuyanda da evimizin pəncərəsindən uzaqda görünən dağlar, təbiətin yaşıllığı, quşların səsinə həsr olunan şeirlər yazdım. Ədəbiyyata həvəsim belə yarandı. Bədii kitablar oxumağa, çoxlu şeirlər əzbərləməyə başladım. Riyaziyyatı da yaxşı bilirdim. 9-10-cu sinfi Bakıdakı 1 saylı Respublika Fizika-Riyaziyyat təmayüllü məktəbdə oxudum. Ancaq sinif yoldaşlarım dəqiq elmlərə üstünlük verdilərsə, mən ədəbiyyatı seçdim. Əvvəlcə filologiya, daha sonra universitetin jurnalistika fakültəsinə daxil oldum. Yadımdadır, həmin illərdə 4-5 saata qədər əzbərdən şeir deyirdim. Evdə də ədəbiyyata marağıma qeyri-ciddi, ötəri baxırdılar. Ədəbiyyata marağımın olduğuna onları inandıra bilmirdim”. R.Məcid şagirdlərə öz arzularının arxasınca getməyi, daim zəhmət çəkməyi məsləhət gördü: “İndi cavanlarla verilişlərə çıxanda müşahidə edirəm ki, gələcəklə bağlı qeyri-müəyyən təsəvvürləri var. Bilmirlər, hansı sahəyə üz tutacaqlar. Düzdür, bu məsələdə müəyyən qədər dövrün sürətinin də günahı var. Mənim “Dəlicəsinə” adlı bir kitabım var. Yəni bir insan bir şeyi ürəkdən istəyirsə, onun üçün dəlicəsinə çalışırsa, mütləq ona çatır. Dəlicəsinə istəməyin içində zəhmət, əziyyət, inadkarlıq, əzmkarlıq var. Ona görə sizə də arzum budur ki, indidən öz gələcəyinizi müəyyənləşdirin, bütün varlığınızla cəhd edin, mütləq ona çatacaqsınız”.

## BU KİTABI MÜTLƏQ OXUYUN

R.Məcid mütaliənin insanın həyatındakı roluna da toxundu: “İxtisas seçməyinizdən asılı olmayaraq çalışın dilimizi gözəl bilin, mütaliə edin. Kitab oxumaq bu mənada insana üstünlük gətirir. Mütaliə həm dünyagörüşünüzü, həm də nitqinizi formalaşdıracaq”.

Şagirdlərdən biri “Gənc vaxtınızda ən çox təsirləndiyiniz əsər hansı olub?”, - deyə soruşdu: “Elə əsərlər çox olub. Siz 40 il əvvəli təsəvvür edə bilirsiniz? Məsələn, bu telefonlar, internet yox idi, TV-də yalnız bir kanal vardı, informasiya mənbəyi qəzet və kitablar idi. 7-8-ci sinifdə oxuyanda Vidadi Babanlının “Vicdan susanda” əsərini 3 günə necə oxumağım yadımdadır. Həyatıma ən çox təsir edən Cek Londonun “Martın İden” romanıdır. Bu əsərin mövzusu real bir insanın istədiyi nəticəni almaq üçün mübarizəsindən bəhs edir. O, çalışmanın, mübarizə əzminin simvoludur. Bu kitab, yəqin ki, məktəbin kitabxanasında var, onu mütləq oxuyun”.

### “MƏNİM GÖZÜMDƏN DƏ YAŞ AXIRDI”

Vətən Müharibəsindən sonra Qarabağda aparılan quruculuq işləri, böyük qayıdışla bağlı sualı cavablandıran R.Məcid dedi: “İşğaldan azad olunan ərazilər bundan sonra daha gözəl olacaq. İnsanlar oralarda məskunlaşacaq”. Qonaq bildirdi ki, Şuşa ən çox sevdiyi şəhərdir: “2021-ci il mayın 12-də “Xarı bülbül” musiqi festivalına getdik. Şuşadan çıxmağımızdan 29 il sonra Şuşaya qədəm qoyduq. Prezident çıxışında dedi ki, mən dünyanın bütün gözəl şəhərlərində olmuşam, amma Şuşaya bənzər şəhər görməmişəm. Mənim gözümdən də yaş axırdı. Prezidentin bu Şuşa sevgisi hamıya sirayət edib. Şuşanı görməyənlər, hətta balaca uşaqlar da Şuşaya can atır. Şuşa doğrudan müqəddəs bir yerdir. Təsəvvür edin, 29 ildən sonra Şuşaya getməyin xoşbəxtliyi, ətrafdakı doğma insanlar, atəşfəşanlıq... Gecə yatmaqmı olardı? Eyvandan baxırdım, inanmırdım. Aşağıda Alim Qasımov zəngulə vururdu. Bu ab-havada ikinci “Şuşa” şeirim yarandı”.